TƏSDİQ EDİRƏM:

Azərbaycan Texniki Universitetinin rektor əvəzi

_____ prof. X.M. Yahudov

_____ may _____ 2019-cu il

## AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNDƏ TƏLƏBƏLƏR ÜÇÜN DAXİLİ NİZAM-İNTİZAM QAYDALARI

Azərbaycan Texniki Universitetində oxuyan tələbə -

**1. <u>Aşağıda göstərilən nizam-intizam qaydalarına əməl etməlidir:</u>**

1.1. Ali məktəb tələbəsi üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün vəzifələri yerinə yetirmək;

1.2. Müəllimlərə, əməkdaşlara, tələbə yoldaşlarına qarşı nəzakətli davranmaq;

1.3. Universitetə daxil olduqda giriş qapısında tələbə biletini təqdim etmək;

1.4. Dərsin başlanmasını bildirən zəng vurulan kimi auditoriyada əyləşmək;

1.5. Dəhlizlərdə və pilləkanlarda sağ tərəflə hərəkət etmək, qarşı tərəfdən gələnlərin hərəkətinə mane olmamaq;

1.6. Universitetin tədris binalarındakı və həyətindəki əmlaka, eləcə də ağaclara, yaşıllığa qayğıkeş münasibət bəsləmək;

1.7. Universitetin kitabxanasında, laboratoriya və auditoriya otaqlarında, fənn kabinetlərində tədris vasitələrinə, avadanlıqlara və mebelə qayğıkeş münasibət bəsləmək;

1.8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Universitetin əmlakına vurduğu maddi zərəri ödəmək;

1.9. Universitetin yataqxanasında tələbə şəhərciyinin və yataqxananın daxili nizam-intizam qaydalarına əməl etmək;

1.10. Universitet rəhbərliyinin, fakültə dekanlıqlarının, universitetin ictimai təşkilatlarının nümayəndələrinin, mühafizə xidmətinin nizam-intizamla bağlı tələblərinə sözsüz əməl etmək;

1.11. Səliqəli və təmiz geyinmək, şəxsi gigiyena qaydalarına riayət etmək;

1.12. Universitetin tədris binalarında, eləcə də həyətdə şübhəli şəxs və ya şübhəli əşya gördükdə təcili surətdə universitetin mühafizə xidmətinə məlumat vermək;

2. **Aşağıdakılar qadağandır:**

2.1. Mühazirə, məşğələ və laboratoriya dərslərində müəllimin dərsi aparmasına mane olmaq;

2.2. Dərs saatlarında üzürsüz səbəbdən dərslərdən yayınmaq, auditoriya, dəhliz və həyətdə səs-küy salmaq;

2.3. Dərs saatlarında mobil telefonlardan, musiqi pleyerlərindən və digər dərsə aidiyyatı olmayan cihazlardan istifadə etmək (Dərs başlayan kimi bütün mobil telefonlar söndürülməlidir);

2.4. Universitetdə hər hansı siyasi, dini təbliğat aparmaq, bu qəbildən vərəqələr yaymaq;

2.5. Tədris binalarının, auditoriyaların, dəhlizlərin divarlarında yazı yazmaq, rəsm çəkmək, əmlakı korlamaq, hər hansı elan, reklam, informasiya və s. xarakterli vərəqələr yapışdırmaq;

2.6. Universitetin bütün tədris binalarında və ərazisində tütün məmulatlarından istifadə etmək (həmçinin elektron siqaret çəkmək);

3. **Universitetin daxili nizam-intizam qaydalarını pozan, tədris intizamına əməl etməyən tələbələr ciddi şəkildə cəzalandırılacaqdır (xəbərdarlıq, töhmət, sonuncu xəbərdarlıqla şiddətli töhmət, inzibati cəza, universitetdən xaric olunma və s).**

Tədris işləri üzrə prorektor — prof. X.M. Yahudov

Tərbiyə işləri üzrə prorektor — prof. İ.Ə. Xəlilov

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri — E.Ə. Bəxtiyarlı

Tələbə Gənclər Təşkilatının sədri — Z. F. Əlizadə